

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 103 (23.265)

4 iyun 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Mersi Tembon qeyd edib ki, artıq Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı, özünüməşğulluq sahələrində Dünya Bankı ekspertləri ilə ölkəmizin müvafiq strukturları arasında layihələrin hazırlanmasına başlanılıb.

Dövlətimizin başçısı əlaqələrimizin yeni səviyyəyə yüksəldiyini və qarşıdakı illərdə institusional islahatlar, iş yerlərinin yaradılması, biznes mühitinin daha da yaxşılaşdırılması kimi istiqamətlərdə də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 3 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlığın genişləndirilməsi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlar və dövlət qulluqçusu da vardır.

**Əhmədov Fikrət Bayram oğlu**

**Məmmədov Ziyafəddin Məcid oğlu**

“Tərəqqi”medalı ilə,

**Qədirzadə Aysel Qadir oğlu**

“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmişlər.

## Naxçıvanda təbiətə qayğı göstərilir





Ekoloji təhlükəsizliyin təmin olunmasında yaşıllıqların artırılması və qorunub saxlanılması mühüm əhəmiyyət daşıyır. Torpaq, yurd sevgisinin, ətraf mühitə və təbii sərvətlərə qayğının daha bir ifadəsi olan bu tədbirlər hər il muxtar respublikada davam etdirilir. Bu ilin yaz əkin mövsümündə də muxtar respublika ərazisində 317 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, yeni meyvə bağları salınmışdır.

İyunun 1-də Naxçıvan Muxtar Respublikasında iməciliklər keçirilmiş, yaşıllıq zolaqları və meyvə bağlarına aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin və Naxçıvan Şəhər İcra Hakimiyyətinin kollektivləri Uzunoba Su Anbarının ətrafında terras üsulu ilə salınmış meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər. 3,6 hektarlıq meyvə bağında 2 mindən artıq ərik, badam, cəviz və tut ağacı, eləcə də 1300 üzüm kolu vardır. Lazımi aqrotexniki qulluq göstərilməsinin nəticəsidir ki, artıq ağaclar məhsul verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə bağlarına qulluğun davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda çimərlik mövsümünə hazırlıq görülür





İsti yay günlərində əhali istirahətə daha çox ehtiyac duyur. Ona görə də muxtar respublikada mövcud təbii imkanlardan səmərəli istifadə olunur, sakinlərin və turistlərin istirahətinin təşkili üçün müvafiq tədbirlər görülür. Yeni xidmət sahələri və istirahət guşələri istifadəyə verilir, çimərliklər yaradılır.

İyunun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Uzunoba Su Anbarındakı çimərlik zonasına gəlmiş, mövsümə hazırlıqla bağlı görülən işlərlə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, general-leytenant Şamil Abdullayev məlumat vermişdir ki, mövsümə hazırlıqla bağlı ərazidə təmizlik işləri görülmüş, insanların istirahəti üçün lazımi şərait yaradılmışdır. Böyüklər və uşaqlar üçün nəzərdə tutulan çimərlik iki hissədən ibarətdir. Böyüklərin istirahəti üçün ayrılan sahənin su hissəsinin dərinliyi relyefə uyğun olaraq 4-12 metrdir. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulmuşdur.

Çimərlik ərazisində kölgəliklər və paltardəyişmə yerləri qurulmuş, idman meydançası, eləcə də avtomobil dayanacağı yaradılmış, ictimai iaşə xidməti təşkil olunmuş, su velosipedləri və motosikletləri qoyulmuşdur. İnsanların təhlükəsizliyi və sağlamlığı da nəzərə alınmış, 1 müşahidə qülləsi yaradılmış, xəbərdaredici və məlumatlandırıcı lövhələr vurulmuşdur. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xilasedici qrupu, eləcə də həkimlər tərəfindən ərazidə xidmət aparılacaqdır. Həmçinin çimərlik zonasına Naxçıvan şəhərindən gündəlik marşrut fəaliyyət göstərəcəkdir.

Qeyd olunmuşdur ki, Uzunoba Su Anbarına tələb olunan qədər su ehtiyatı yığılıb. Zəngin mineral tərkibə malik olan su insan sağlamlığı üçün çox faydalıdır. Su anbarının biomüxtəlifliyinin qorunub saxlanılmasına da xüsusi diqqət yetirilmiş, balıq ehtiyatı artırılmış, balıqçılar üçün lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri iyunun 15-də çimərlik mövsümünün açılması, ərazinin genişləndirilməsi, təmizliyə və təhlükəsizlik qaydalarına əməl edilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Uşaqları Beynəlxalq Müdafiə Günü ilə bağlı tədbir

***Naxçıvan Muxtar Respublikasının Təhsil, Mədəniyyət nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrında 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilib.***





Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, bu gün muxtar respublika əhalisinin 35 faizi və ya 163 min 281 nəfəri uşaqdır. Onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Qeyd edilib ki, uşaqların sosial ehtiyaclarının təmini, onların yüksək mənəvi mühitdə, milli dəyərlər əsasında tərbiyəsi, təhsil alaraq layiqli şəxsiyyət kimi yetişməsi diqqət mərkəzində saxlanılır. Yaradılan şəraitin nəticəsidir ki, ötən il ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1781-i ali təhsil, 615-i orta ixtisas təhsili müəssisələrinə, Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 208-i isə müxtəlif ali hərbi məktəblərə daxil olub. Ali məktəblərə qəbul olunan 331 nəfər 500-700 arası bal toplayıb. Bu gün uşaqların peşə təhsilinə cəlbi də qarşıda duran əsas vəzifələrdəndir. 2018-2019-cu tədris ilində 320-dən çox uşaq maraqlarına uyğun peşə və ixtisaslara yönləndirilib. Həmçinin uşaqların fiziki cəhətdən sağlam böyüməsi də diqqətdə saxlanılır. Yaradılan şəraitin nəticəsidir ki, hazırda muxtar respublikada 28 minə yaxın uşaq idmanla məşğul olur.

Vurğulanıb ki, muxtar respublikada Gənc istedadların "Qızıl kitabı"nın yaradılması, 8 istedadlı uşağın adının bu kitaba salınması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.

"Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün, sağlamlıq imkanı məhdud, şəhid və aztəminatlı ailələrdən olan 751 uşağa bayram günlərində, tədbirlərdə hədiyyə və sovqatlar verilib, xüsusi kateqoriyadan olan 394 uşaq məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunublar", – deyən komitə sədri qeyd edib ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası da daim nəzarətdə saxlanılıb.

Ramilə Seyidova çıxışının sonunda muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Sonra tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2018-2019-cu tədris ilində təhsil, idman, incəsənət nominasiyaları üzrə ilin ən yaxşı 17 istedadlı uşağına hədiyyələr və fəxri fərmanlar təqdim olunub.

Tədbirin bədii hissəsində muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi məktəblərinin, folklor qrupları kollektivlərinin, o cümlədən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər" və Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs ansambllarının, Naxçıvan şəhərindəki 11 nömrəli uşaq bağçası fidanlarının çıxışları olub. Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbinin şagirdinin çıxışı alqışlarla qarşılanıb.

Sonra uşaq ədəbiyyatından ibarət kitab sərgisinə və istedadlı uşaqların hazırladıqları əl işlərinə – dekorativ, tikmə, toxuma, rəsm əsərlərinin sərgisinə baxış olub.

Tədbirdə iştirak edən 520 uşağa bayram hədiyyələri verilib.

**Nail ƏSGƏROV**

## Muxtar respublikada dövlət miqrasiya siyasəti uğurla həyata keçirilir

***Naxçıvanın iqtisadi-siyasi, sosial, mədəni, bir sözlə, hərtərəfli dinamik inkişafı onu əcnəbilər üçün də olduqca maraqlı bir diyara çevirir. Atılan hər bir uğurlu addım muxtar respublikamıza gələn əcnəbilərin rahatlığına hesablanıb.***

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti muxtar respublikaya daxil olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı, müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi və iş icazələrinin müddətlərinin uzadılması, eləcə də qanunsuz miqrasiyaya qarşı mübarizə məsələləri ilə məşğul olur.

Bu gün muxtar respublikamızda fəaliyyət göstərən əməkçi miqrantların çalışdıqları iş yerlərində iş icazəsinə malik olmalarının araşdırılması, onların əmək fəaliyyətlərinin qanuniliyinə nəzarət edilməsi Dövlət Miqrasiya Xidmətinin əsas fəaliyyət istiqamətləri sırasındadır. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində əcnəbilərin muxtar respublikamızda əmək fəaliyyəti ilə məşğul olması da diqqət mərkəzində saxlanılır. Əməkçi miqrantların muxtar respublika ərazisində qanunsuz şəkildə əmək fəaliyyətinə cəlb edilməsinin qarşısının alınması məqsədilə maarifləndirici söhbətlər aparılır. Ötən ay "Sahibkarlıq subyektlərinə əcnəbi işçilərin cəlb edilməsi və kadr hazırlığı" mövzusunda keçirilən tədbir də bu məqsədlə təşkil edilmişdi.

2018-ci il 31 yanvar tarixdə "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın imzalanması muxtar respublikamızda turizmin inkişafı üçün sərhəd-keçid prosedurları sadələşdirmək və sürətləndirməklə bu işi Dövlət Miqrasiya Xidmətinin əsas fəaliyyət istiqamətlərindən birinə çevirib.

Dövlət Miqrasiya Xidmətinin qarşısında duran vəzifələrdən biri də çoxsaylı tranzit miqrantların ölkə ərazisində məskunlaşmalarının və qanunsuz olaraq muxtar respublika ərazisindən tranzit keçid kimi istifadə edərək üçüncü ölkəyə keçmələrinin qarşısının alınmasıdır. Muxtar respublikanın ölkə xaricinə giriş-çıxış qapıları sayılan Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanındakı sərhəd-buraxılış məntəqələrində qanunsuz miqrasiyanın qarşısının alınmasına nəzarətin daha keyfiyyətli şəkildə həyata keçirilməsinə başlanılıb. Bundan əlavə, sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində elektron məlumat köşkləri yerləşdirilib.

İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd-keçid rejiminin sadələşdirilməsi, Naxçıvan Beynəlxalq Hava Limanından xarici reyslərin, eləcə də Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarının fəaliyyətinin təşkili muxtar respublikamıza turist kimi gələn miqrantların sayının artmasında mühüm rol oynayıb. Bu səbəbdən də sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində, Naxçıvan və Culfa sərnişin vağzalı binalarında miqrasiya xidmətlərinin həyata keçirilməsi üçün vacib işlər görülüb. Belə ki, ölkəyə daxil olan əcnəbilərin qeydiyyata alınması proseduru sadələşdirilib.

Ötən dövr ərzində qurumun maddi-texniki bazası və infrastrukturu inkişaf etdirilib, fəaliyyətinin genişləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib, elektron informasiya resursları formalaşdırılıb. Xidmətin yenilənmiş rəsmi internet səhifəsinin fəaliyyət göstərməsi dünyanın müxtəlif yerlərindən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə müraciətetmə imkanı yaradır və miqrasiya sahəsi üzrə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasında böyük rol oynayır. Dövlət Miqrasiya Xidmətində vətəndaşların müraciət etmək hüququnun təmin edilməsi məqsədilə yaradılmış "202 – Miqrasiya Məlumat Mərkəzi"nin fəaliyyəti miqrasiya sahəsi üzrə müraciətlərin cavablandırılmasında mühüm əhəmiyyət kəsb edir.

Xidmət tərəfindən əcnəbilərin maarifləndirilməsinə, eləcə də muxtar respublikamızın tarixi, mədəniyyəti ilə bağlı məlumatlar əldə etmələrinə də daim diqqət göstərilir. Belə ki, mütəmadi olaraq muxtar respublikada müvəqqəti olan və yaşayan, əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin iştirakı ilə müxtəlif maarifləndirmə tədbirləri keçirilir, tarixi abidələrə və muzeylərə ekskursiyalar təşkil olunur.

Xidmətin daha bir yeniliyi isə inzibati binada müasir sistem – dil laboratoriyasının yaradılmasıdır. Ölkələrdə çoxsaylı istifadəçiyə malik olan bu sistem artıq Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində də yaradılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzi beynəlxalq standartlara cavab verir. Mərkəzdə könüllü və məcburi saxlanılan miqrantların hüquqlarının təmin edilməsi məqsədilə hər cür lazımi şərait yaradılıb.

Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində miqrasiya sahəsində yeni nailiyyətlər qazanılır.

Yaradılmasından qısa müddət keçməsinə baxmayaraq, mərkəzi icra hakimiyyəti orqanı kimi hər zaman dövlətə, dövlətçilik ənənələrinə sadiq olan Dövlət Miqrasiya Xidmətinin kollektivi öz səlahiyyətləri çərçivəsində qarşısına qoyulmuş vəzifələri bundan sonra da vaxtında və uğurla yerinə yetirməyə çalışacaq.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Tələbələrlə görüş



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr iyunun 3-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar.

Onlar əvvəlcə buradakı kitabxana ilə tanış olub, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumatlar alıblar. Sonra tələbələrə prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi izah olunub, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, o cümlədən cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elanetmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri, ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında danışılıb, mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublika prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev tələbələrlə görüşdə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarının əhəmiyyəti, prokurorluq orqanlarında çalışmaq istəyən əməkdaşların peşəkar mütəxəssis, öz işinin öhdəsindən vicdanla gələ bilən yüksəkixtisaslı kadrlar kimi yetişdirilməsinin vacibliyini vurğulayıb.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamı peşəkar mütəxəssis, yüksəkixtisaslı kadrların hazırlanmasında əhəmiyyətli addımlardan biridir və bu istiqamətdə görülən işlər öz müsbət nəticəsini göstərəcəkdir.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin müəllimi Pərviz Qəribov Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

## Növbəti kurs uğurla başa çatıb



*Zabit heyətinin təkmilləşdirilməsi kursunun başa çatması münasibətilə keçirilən buraxılış mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.*

Mərasimdə zabit Mehman Gülməmmədov çıxış edərək bildirib ki, kurs zamanı Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində müxtəlif ixtisaslar üzrə dərslər keçilib. Kursa cəlb edilmiş zabitlərin peşəkarlıqları real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da artırılıb.

Məzunlar söz veriblər ki, kursda qazandıqları yeni taktiki bilikləri xidmət yerlərində uğurla tətbiq edəcək, ordumuzun peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev şəxsi heyəti təbrik edərək bildirib ki, peşəkar hərbçilərin yetişdirilməsinə xidmət edən digər kurslar kimi zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur. Kurslar zamanı hərbi qulluqçuların bilik, bacarıq və peşəkarlıqları daim artırılır. Təbii ki, bütün bunlar da hərb işinə verilən yüksək qiymətdən xəbər verir.

Sonra kursu uğurla başa vuran məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub və məzunların yuxarı vəzifələrə təyin olunmaları ilə bağlı verilən əmr mərasim iştirakçılarına çatdırılıb. Əmr oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

## Türkiyə Silahlı Qüvvələrinin təlimə cəlb edilmiş şəxsi heyəti Naxçıvana gəlib

*İyunun 7-dən 11-dək keçiriləcək "Sarsılmaz qardaşlıq – 2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təliminə cəlb edilmiş Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyət və hərbi texnikaları Naxçıvana gəlib.*

Bu münasibətlə Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində təntənəli qarşılanma mərasimi keçirilib.

Mərasimdə çıxış edənlər gündən-günə inkişaf edən Türkiyə-Azərbaycan qardaşlıq münasibətlərindən, hərbi-texniki əməkdaşlıqdan və artıq ənənə halını almış döyüş atışlı birgə təlimlərin əhəmiyyətindən danışıblar.



Sonda təlimə cəlb edilmiş Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində yerləşiblər.

## Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları birinci yerə layiq görülüb

Azərbaycan Ordusu üzrə keçirilən "Ən yaxşı reaktiv artilleriya divizionu" adı uğrunda yarışda Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları yüksək peşəkarlıq nümayiş etdiriblər.

Planauyğun olaraq keçirilən yarışda reaktiv artilleriya divizionunun şəxsi heyəti bütün mərhələlər üzrə tapşırıqları uğurla yerinə yetirərək Azərbaycan Ordusu üzrə birinci yerə layiq görülüb.

**Nəriman NƏCƏFOV**

## Elşad Səfiyev: “Görkəmli rəssamın 120 illik yubileyinin qeyd olunması onu yenidən öz Vətəninə, xalqına qazandırdı”

***Qədim Naxçıvan hər zaman özünün görkəmli şəxsiyyətləri ilə sayılıb-seçilib. Mədəniyyətdən incəsənətə, ədəbiyyatdan tarixə, təbabətdən hərb elminədək öz sözünü demiş həmyerlilərimiz təkcə ölkəmizdə deyil, onun hüdudlarından da çox-çox uzaqlarda tanınıblar. Anadan olmasının 120 illik yubileyi geniş şəkildə qeyd edilən görkəmli rəssam İbrahim Səfiyev də məhz yaradıcılığı ilə bütün Türk dünyasını fəth edən, təkcə Türkiyədə deyil, Avropanın bir çox ölkələrində də sənətinə böyük maraq oyadan incəsənət ustadlarımızdandır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında” 2018-ci il 17 oktyabr tarixli Sərəncamı qəlbindəki əbədi Vətən sevgisini məhəbbətlə sənət əsərinə çevirən böyük ustadın həyat və yaradıcılığına yenidən işıq salan qiymətli sənəd, sənətinə verilən ən böyük dəyərdir.***



Sərəncamın icrası istiqamətində bu günədək müxtəlif tədbirlər keçirilib, rəssamın əsərlərindən ibarət sərgi təşkil olunub. Növbəti belə tədbir isə aprel ayında paytaxt Bakıda – Atatürk Mərkəzində təşkil edilmişdi. Belə bir tədbirdə iştirak etmək şansı əldə etdiyim üçün qürurlandım.

Həmin elmi-praktik konfransda ölkəmizin tanınmış elm və incəsənət nümayəndələri ilə yanaşı, daha bir ziyalı – görkəmli rəssamın qardaşı nəvəsi Elşad Səfiyev də iştirak edirdi. Fürsəti əldən verməyib İbrahim Səfiyevin keşməkeşli həyat yolu, hüdudları aşan yaradıcılığı haqqında fikirləri məhz onun qardaşı nəvəsindən dinləmək istədim. Bir neçə gündən sonra vədələşdiyimiz kimi onunla həmsöhbət olduq:

***– Elşad müəllim, Səfiyevlər ailəsi və həmin ailənin gökəmli nümayəndəsi İbrahim Səfiyev haqqında onun qohumlarından biri kimi nə deyə bilərsiniz?***

– Bildiyiniz kimi, İbrahim Səfiyev üç yaşında olarkən babamgil atalarını itiriblər. Onun qardaşı, yəni babam Kərimdən başqa, Qədirnisə, Xırdaxanım, Siyəmən və Mina adında dörd bacısı da olub. Onların uşaqlıq illəri çətinliklər içində keçib. Babam ötən əsrin 20-30-cu illərində Naxçıvandan Gəncəyə köçüb.

İbrahim Səfiyevin əsl adı Rəhman olub. Babamgil də xatirələrində qeyd etdikləri kimi, Rəhman kiçik yaşlarından rəsmə həvəs göstərib. Hələ 12 yaşında ikən “Araz balıqçıları” adlı rəsm və anasının portretini çəkib. İrəvan Müəllimlər Seminariyasında təhsilini davam etdirərkən buradakı rəsm müəllimi, rumıniyalı Koltsa adlı rəssamın İbrahim Səfiyevin bir sənətkar kimi yetişməsində böyük əməyi olub.

Seminariyanı bitirdikdən sonra iki il Moskvadakı Rəssamlıq İnstitutunun hazırlıq kursunda təhsil alıb. Lakin Rusiyadakı 1917-ci il inqilabı hadisələrinə görə təhsilini yarıda buraxıb Naxçıvana qayıdıb. Qafqaz-İslam Ordusunun tərkibində Zəngəzur döyüşlərində könüllü olaraq ermənilərə qarşı vuruşub. I Dünya müharibəsi illərində Zaqafqaziyadakı ordunun tərkibində Türkiyəyə gedib və həyatını orada qurmalı olub. Çünki Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra vətəninə dönməsi mümkünsüz idi. Buna görə də həmin illərdən ailəsi ilə əlaqəsini itirib. Beləliklə, Rəhman Səfiyev qürbət elin nəbzini tutmaq üçün önəmli addımlar atır. Əvvəlcə İstanbulda Gözəl Sənətlər Akademiyasına daxil olur və 1923-cü ildə buranı bitirir. Bir il sonra sərgilərdə iştirak edən rəssam II Dünya müharibəsinin başlanması ilə hərbi xidmətə çağırılır. Orduda qulluğunu tamamladıqdan sonra həmişəlik İstanbulda məskunlaşır və həyatını bu sənətə bağlayır. Türkiyə vətəndaşlığına keçərkən Rəhman Səfiyev adını İbrahim Safi kimi yazdırır. Çünki Rəhman adı dinlə qadağan idi. Bildiyimə görə, uzun müddət ailə qurmayıb. Çünki geri dönüb doğma Vətənində yaşamaq arzusunda olduğu üçün orada evlənmək istəməyib. Uzun müddətdən sonra – 1953-cü ildə 55 yaşına çatanda yunan əsilli Zaxarina adlı nəvələri olan xanımla ailə qurmalı olub.

II Dünya müharibəsi bitdikdən sonra Türkiyədə kifayət qədər məşhurlaşan İbrahim Səfiyevin Avropada da sərgiləri açılır. 2 il Münhendə olmaqla bərabər, 11 il Avropa ölkələrində yaşayıb. Türkiyə dövləti tərəfindən Roma və Vyanaya göndərilib. Bu ölkələrdə də fərdi və qarışıq sərgilərdə iştirak edib. 1967-ci ilə qədər təkcə Marsilyada 8 fərdi sərgisi açılıb.

Ömrünün sonlarında İbrahim Səfiyev görmə qabiliyyətini get-gedə itirib. 1983-cü ildə 100-cü fərdi sərgisinin açılışı olacaqmış. Elə həmin axşam, yanvarın 4-də həyata vida edib. Həmin sərgi onsuz keçib. İstanbuldakı Zəncirli quyu məzarlığında dəfn olunub. Adı qardaş ölkədə əbədiləşdirilib, İstanbul şəhərindəki “İstiqlal” prospektində onun yaşadığı binanın üzərinə xatirə lövhəsi vurulub.

***– Sizcə, İbrahim Səfiyev Türk dünyası rəssamlığında hansı mövqedə olub?***

– İxtisasıma uyğun olmadığına görə onun əsərlərini peşəkarcasına dəyərləndirmək mənə çətin olar. Amma İbrahim Səfiyev şəxsiyyəti, yaradıcılığı barədə çox məlumatlar öyrənmişəm. Onunla bağlı Türkiyə rəssamlarının, sənət adamlarının xatirələri, müsahibə və məqalələri rastıma çıxdıqca toplayıb şəxsi kolleksiyamda saxlayıram. Bütün bunlara əsaslanaraq deyə bilərəm ki, İbrahim Səfiyev öz dəst-xəttini yaradaraq türk rəssamlığına yeni bir meyil gətirib. Mən onun daha çox Repin yaradıcılığından təsirləndiyini bildirmək istəyirəm. Çünki o, sərbəst impressionizm üslubunda əsərlər yaradıb. İmpressionizmin gətirdiyi boya incəliyini özünəməxsus tərzdə əsərlərində tətbiq edib.

Türkiyənin sənət adamları deyir ki, o, bizi Avropada müxtəlif janrlarda tanıdıb. Xüsusilə portret janrını vurğulayırlar. Qeyd edirlər ki, Kahramanmaraşda və digər şəhərlərdə bəstəkarların portretlərinin sərgisi keçirilərkən, təxminən, 70-ə yaxın portreti konservatoriyalara bağışlayıb. Hətta məqalələrdən birində onun varisinin olmadığını təəssüf hissi ilə oxumuşam. Onlar bilmirlər ki, Naxçıvanda onun qohumları var. Hətta qeyd olunur ki, İbrahim Səfiyev başqa ölkədə yaşasaydı, onun fan klubu olardı, muzeyi yaradılardı. Çünki “hər bir evdən İbrahim Safi çıxır”. Çoxu da şəxsi kolleksiyalardır. Bu gün Türkiyənin görkəmli şəxsiyyətlərində və kolleksiyonerlərində onun qiymətli rəsmləri var və bu, onlar üçün prestij hesab olunur.

İbrahim Səfiyev 10 mindən artıq rəsm əsəri çəkib və Türkiyədə ən çox əsəri olan və satılan rəssam kimi də tanınır. İbrahim Səfiyevin vəfatından sonra rəssamın öz kolleksiyasında olan ən dəyərli əsərlərini və eskizlərini həyat yoldaşı Zaxarina xanım özü ilə Yunanıstana, Afinaya aparır. Bəzilərini dəyər-dəyməzə antikvar əşya ticarəti ilə məşğul olanlara satır. İbrahim Safinin son nəfəsinə kimi yanında olan şəxsi həkimi var idi, Ənvər Tali. Onun kolleksiyasında rəssamın 350 rəsm əsəri olub. Hansı ki 7 milyon dollar məbləğində dəyərləndirilir. Ölümündən sonra albomunu çap etdirib. 1998-ci ildə Türkiyədə 100 illik yubileyinin qeyd olunmasına təşəbbüs göstərib.

Bir də onu xüsusi vurğulamaq istərdim ki, Türkiyədə İbrahim Səfiyevi ən çox ilk dəfə Mustafa Kamal Atatürkün naturadan portretini çəkən rəssam kimi tanıyırlar. İbrahim Səfiyev rəssamların bir çoxuna nəsib olmayan, tarixə düşəcək hadisəyə imza atıb. O, iki dəfə Atatürkün qarşısında palitra quraraq görkəmli sərkərdənin portretini çəkib. Türk tarixinin şanlı səhifələrini və qəhrəmanlarını öz tablolarında yaşadan rəssam bu portretdə dahi şəxsiyyətin obrazını sənətkarlıq kamilliyi ilə yanaşı, tarixi gerçəkliyi ilə də mükəmməl şəkildə ifadə edə bilib.

Həm də onu deyə bilərəm ki, İbrahim Səfiyev yaradıcılığında uşaqlıq xatirələrinə əsaslanan doğma yurdun məişətinə dair mövzulara da rast gəlmək olur. Buna misal olaraq onun Şərurdan Əyricə yaylağına gedən köçərilərin həyatını əks etdirən “Şərq rəqqasları dağlıq ərazidə” adlı silsilə əsərlərini göstərmək olar. Rəsmə baxarkən gözlərimiz önündə əzəmətli dağ mənzərəsi canlanır. Bu əsərdə arxa planda qədim karvansara qarşısında köçərilər dəstəsinin əyləndiyini görə bilərik. Məlumdur ki, “Şərq rəqqasları dağlıq ərazidə” freskası rəssam tərəfindən divara çəkilmiş möhtəşəm əsərdir. Əsər öz monumentallığı və orijinallığı ilə tamaşaçıları bu gün də heyran edir.

***– İbrahim Səfiyev yaradıcılığı, onun əsərləri ilə ilk dəfə nə vaxt tanış olmusunuz? Ən çox diqqətinizi hansı əsərləri cəlb edib?***

– Yadıma gəlir, ilk dəfə 16 yaşım olanda onun çəkdiyi portreti görmüşəm. Çox maraqlı bir əsər idi. İbrahim Səfiyev haqqında ilk məlumatları almağımızda bibim Zərri xanımın rolunu qeyd etmək istəyirəm. O, Türkiyədə yaşayan əmisi İbrahim Səfiyevin sorağına düşsə də, ovaxtkı mövcud siyasi rejimə görə bu ölkəyə getmək mümkün olmayıb. Yalnız 1968-ci ildə Türkiyəyə getmək üçün icazə alıb. İbrahim Səfiyevi taparaq 3 ay onun yanında qalıb. Bu müddətdə əmisindən cizma-qara etməyi də öyrənib. İbrahim Səfiyev ona portretini çəkərək hədiyyə edib. Qayıdanda əmisinin bir neçə portretini özü ilə gətirib. O vaxt görkəmli rəssam yavaş-yavaş bizim ölkədə tanınmağa başlayıb. Vətənpərvər alimlərimizdən Abbas Zamanov belə bir azərbaycanlı rəssamın olduğu barədə məqalə yazıb, onun sərgisinin keçirilməsi haqqında təklif irəli sürüb.

***– Tarixən şahidi olmuşuq ki, istedad bir çox hallarda irsi xarakter daşıyır. Bəs Səfiyevlər nəslindən onun sənətinin davamçıları varmı?***

– İbrahim Səfiyev yaradıcılığının təsiri olub, yoxsa yox, deyə bilmərəm, amma bacımın oğlu bu sənətlə məşğul olur. Adını eşitməmiş olmazsınız, Faiq Əhməd. Günümüzün məşhur xalçaçı rəssamlarından biridir. Onun yaradıcılığında xalça əsas yer tutur. Rəssamın bu sahədə yaratdığı əsərlər bir neçə mötəbər sərgilərə çıxarılıb. Onu xalça rəssamlığı stereotiplərini qıran rəssam kimi xarakterizə edirlər.

***– Elşad müəllim, çağdaş dövrümüzdə İbrahim Səfiyev irsinə qayıdış bildiyimiz kimi, Naxçıvandan başlayıb...***

– Babamın qardaşı İbrahim Səfiyev Türkiyədə yaşayıb-yaratmaqla bütün Türk dünyasında, Avropada məşhurlaşıb. Ancaq bütün bunlara baxmayaraq, hər zaman qəlbi Vətən eşqi ilə döyünüb, doğulduğu Naxçıvan torpağının xiffətini çəkib.

Mən burada bir haşiyə çıxıb İbrahim Səfiyevin Vətən həsrətini tam dolğunluğu ilə əks etdirən bir xatirəyə diqqəti çəkmək istərdim. Onun Türkiyədə sənət dostları çox olub. Onlardan biri də qocaman kolleksiyaçılardan olan dostu Naci Tərzi idi. O, xatirələrinin birində İbrahim Səfiyevi anaraq deyirdi: “Ömrünün axırlarına yaxın mənə ağlaya-ağlaya dedi ki, Naci bəy, mən özümü xoşbəxt hiss etmirəm. Naci Kalmıkoğlu ilə pulumuz olmazdı, çörəyin arasında balıq yeyərdik, onda çox xoşbəxt idim. İndi maddi cəhətdən heç bir problemim yoxdur, xəstəliyimi də vecimə almıram, ancaq xoşbəxt deyiləm... Çünki doğulduğum torpağın həsrəti məni heç vaxt tərk etməyəcək”. Bu xatirə bir daha göstərir ki, İbrahim Səfiyev Türk dünyasında kifayət qədər tanınmış sənətkarlardan olsa da, onun üçün doğulub boya-başa çatdığı doğma Vətəni daha müqəddəs, daha əziz olub.

Bəzən təəssüf edirəm ki, o dövrlərin mövcud siyasi və tarixi məqamlarına görə İbrahim Səfiyev kimi qürbətdə parlayan şəxsiyyətlər, görkəmli elm və sənət adamları araşdırılıb öyrənilməyib, onlar tədqiqatdan kənarda qalıblar. Hətta mən deyərdim ki, son illərədək bu yurdun görkəmli yetirməsi İbrahim Səfiyev heç ölkəmizdə kifayət qədər tanınmırdı. Şükürlər olsun ki, bu gün ölkəmiz öz müstəqilliyini bərpa edib, Azərbaycandan kənarda yaşayıb fəaliyyət göstərən tanınmış insanlarla bağlı tədqiqatlar aparmaq, onlarla bağlı məlumatlar almaq imkanları əlçatan olub.

Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova ailəmiz adından dərin minnətdarlığımı bildirirəm. Mən deyərdim ki, Ali Məclis Sədrinin görkəmli rəssamın 120 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncamı İbrahim Səfiyevi yenidən öz Vətəninə, xalqına qazandırdı. Məhz bu sərəncam sayəsində görkəmli rəssamın yaradıcılığı daha geniş araşdırılıb öyrənilir və təbliğ olunur. Bu, onu göstərir ki, Vətən üçün çalışanlar, yaşadığı ölkəni təbliğ edənlər heç zaman unudulmur.

İbrahim Səfiyev yaradıcılığının araşdırılıb öyrənilməsində böyük əməkləri olan görkəmli ziyalılarımıza, o cümlədən akademik İsa Həbibbəyli və istedadlı rəssamımız, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevaya minnətdarlığımı bildirirəm. Mən sizə deyim ki, akademik İsa Həbibbəyli bu nəsli çox yaxından tanıyır. Babam Kərim bəy barədə məlumatları çox maraqlı gəldi mənə.

Görkəmli rəssamla bağlı ciddi elmi-tədqiqat işləri üzərində çalışan, onun Naxçıvanda və Bakıda sərgilərinin təşkilində böyük əməyi olan Ülviyyə xanımla söhbətimiz zamanı öyrəndim ki, İbrahim Səfiyevin Naxçıvandakı evinin bərpa edilməsi nəzərdə tutulur. Onun doğma yurdu Cəlilkənddə ev-muzeyi təşkil ediləcək. Rəssamın doğmalarından biri kimi bu xəbər məni çox sevindirdi. Bu gün İbrahim Səfiyevin ruhunu onun ən böyük nisgili – Vətən həsrətinə qovuşduranlara minnətdaram.

***– Müsahibə üçün çox sağ olun.***

**Gülcamal TAHİROVA**
*Naxçıvan-Bakı-Naxçıvan*

## Dərsliklərin müzakirəsi davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində X sinif “Kimya” dərsliyinin müzakirəsi keçirilib.*

Müzakirədə iştirak edən Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov çıxış edərək vurğulayıb ki, aprelin 15-də keçirilmiş müşavirədə Ali Məclisin Sədri tərəfindən verilmiş tapşırıqlar təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyır. Həmin tapşırıqların icrasının təmin olunması məqsədilə Təhsil Nazirliyi ali məktəblərin professor və müəllim heyətləri ilə birlikdə yeni dərslik və dərs vəsaitlərinin müzakirəsini həyata keçirir. Bugünkü tədbir X sinfin “Kimya” dərsliyinə həsr olunmuşdur. Müzakirələrin sonunda rəy və təkliflər hazırlanacaq ki, bu da həmin dərsliyin təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin prorektoru Rafiq Rəhimov çıxış edərək yeni dərslik və dərs vəsaitlərinin nəşrinin və müzakirələrinin keçirilməsinin tədrisin keyfiyyətinin yüksəldilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Müzakirədə dərsliyin həm keyfiyyətcə, həm də məzmunca yüksək səviyyədə hazırlandığını qeyd etməklə yanaşı, bir sıra çatışmazlıqların da olduğu qeyd edilib.

Müzakirələrdən sonra yekun təkliflər hazırlanaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə təqdim olunub.

Qeyd etmək lazımdır ki, Naxçıvan Dövlət Universitetində X sinif “Azərbaycan dili” və “Fizika”, “Naxçıvan” Universitetində XI sinif “İngilis dili” və X sinif “Tarix”, Naxçıvan Müəllimlər İnstitutunda X sinif “Riyaziyyat” və “İnformatika” dərsliklərinin müzakirəsi həyata keçirilib, dərsliklərdəki nöqsanlarla bağlı təkliflər hazırlanıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## İmtahanın ikinci mərhələsi keçirilib

***Dövlət İmtahan Mərkəzi iyunun 2-də Bakı, Şirvan şəhərləri və Naxçıvan Muxtar Respublikasının ümumtəhsil müəssisələrinin 9-cu sinif şagirdləri üçün buraxılış imtahanının ikinci mərhələsini keçirib.***

Həmin gün, ümumilikdə, 37 min 670 şagird imtahan verib. İmtahan bütün binalarda saat 11[00]-da başlanıb və 3 saat davam edib. İmtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə, ümumilikdə, 90 qapalı-tipli tapşırıq təqdim edilib.

İmtahanların idarə olunmasına 81 ümumi imtahan rəhbəri, 248 imtahan rəhbəri, 2978 nəzarətçi-müəllim, 265 buraxılışı təşkil edən əməkdaş, 81 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında imtahanların şəffaf və obyektiv keçirilməsi üçün, ümumilikdə, 12 imtahan mərkəzi yaradılıb. Bu mərkəzlərdə 3460 şagird imtahan verib.

Muxtar respublikada keçirilən imtahanların idarə olunmasına, ümumilikdə, 335 nəzarətçi-müəllim, 27 imtahan rəhbəri cəlb edilib. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, şagirdlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Nəticələr yaxın günlərdə elan ediləcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvanda IV “Göycə” festivalı keçirilib

*“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində IV “Göycə” festivalı keçirilib.*

Festivalın açılışında tədbirin aparıcıları qeyd ediblər ki, qədim Naxçıvan zəngin mədəniyyəti, çoxəsrlik tarixi ilə yanaşı, bu torpaqda yetişən nemətləri ilə də dünyada tanınır. Naxçıvanın istər təbii duzu və mineral bulaqları, istərsə də barlı-bəhərli bağlarında yetişən növbənöv meyvələri süfrələrimizin dad-tamına, bərəkətinə çevrilib. Bütün bunlara görədir ki, hələ orta əsrlərdə səyyahlar Naxçıvanı “meyvə cənnəti” adlandırıblar. Diyarımızda hər mövsümün öz meyvəsi vardır. Bu meyvələr içərisində öz dad-tamı ilə seçilən, yalnız Naxçıvanda bitən bir meyvə də vardır ki, o da göycədir. Bu meyvənin tarixi VII əsrə gedib çıxır. Bu gün Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında göycənin müxtəlif növləri yetişdirilir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun elmi işçisi, aqrar elmlər doktoru Varis Quliyev çıxış edərək deyib ki, elmə Naxçıvan göycəsi sortunun xalq seleksiyası yolu ilə yaradıldığı məlumdur. Göycə sortunun adı becərildiyi ərazinin və faraş yeyildiyi məhsulun rənginə uyğun olaraq adlandırılıb. O, muxtar respublikada yazda ilk yeyilən meyvələrdən biridir. Naxçıvanın torpaq-iqlim şəraiti göycənin tez böyüməsi, inkişafı, bol və yüksəkkeyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir. Əsasən, Arazboyu maili düzənlik ərazilərdə Naxçıvan göycəsi sortundan ibarət bağların salınması üçün olduqca əlverişli ekoloji mühit vardır. Çoxillik göycə ağacları 10-25 il normal məhsul verir, hər bir ağacdan ildə, təqribən, 50 kiloqrama qədər məhsul toplanılır. Naxçıvan göycəsi, adətən, yazda, yayda və payızda müxtəlif calaq üsulları ilə çoxaldılır. Calaqaltı kimi çəyirdəkli meyvələrin tinglərindən istifadə edilir. Albuxara ağacına calaq yolu ilə yetişdirilən göycə meyvələri nisbətən iri və şirin, badam ağacına calaq edildikdə isə göycə ağacları uzunömürlü olur.

Varis Quliyev muxtar respublikada meyvəçiliyin inkişafına göstərdiyi diqqət və qayğıya görə festival iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.



Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının ifasında səsləndirilən şən mahnı və rəqslər alqışlarla qarşılanıb.

Qeyd edək ki, festivala muxtar respublikanın şəhər və rayonlarından 234 fərdi təsərrüfat nümayəndəsi tərəfindən 18 tondan çox göycə gətirilmişdi. Festivalda göycədən hazırlanan mürəbbə, cem, əzmə, kompot və araqların sərgi və satışı da təşkil edilmişdi.

Festivalda ailə təsərrüfatı sahibləri ilə həmsöhbət olduq. Əvvəlcə Babək rayonu üçün ayrılmış pavilyona üz tuturuq. Rayonun **Nehrəm kənd sakini Vəfadar Eyvazov** bildirdi ki, artıq dördüncü ildir, bu festivala məhsul çıxarır. Keçən il yaxşı qazanc əldə etdiyi üçün bu il daha çox göycə gətirib. Festivalda 200 kiloqram göycənin artıq xeyli hissəsini sata bilib. 20 ildən çoxdur ki, göycə təsərrüfatında çalışan sahibkarın həyətində 100-dən artıq göycə ağacı vardır. Ailə təsərrüfatı sahibi gətirdiyi göycə məhsuluna marağın böyük olduğunu söylədi.

Kəngərli rayonundan festivala qatılan **Çalxanqala kənd sakini Zaur Həsənov** 6 ildir ki, göycə təsərrüfatı ilə məşğul olur. 100 kiloqram məhsulla burada iştirak edən təsərrüfatçı festivalın keçirilməsinin Naxçıvan göycəsinin tanıdılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini dedi. Zaur Həsənov muxtar respublikada meyvəçiliyin inkişafı üçün yaradılan hərtərəfli şəraitə görə minnətdarlıq etdi.

**Culfa rayonunun Göydərə kənd sakini Əli Vəliyev** festivala 200 kiloqram göycə gətirmişdi. Dedi ki, həyətinin bu məhsulunu hər il bazara da çıxarır. Həyətində 35 göycə ağacı olan 61 yaşlı ailə təsərrüfatçısı 5 ildir, göycə ağacları əkir. Müsahibim festivalın təşkilinin bu məhsulun satışına daha geniş şərait yaratdığını qeyd etdi.

Festivalda iştirak edən xarici ölkə vətəndaşlarının da bu



məhsul bayramına böyük maraq göstərdiklərini müşahidə etdik. Naxçıvanda təhsil alan **Nigeriya vətəndaşı Joseph Okpamen** bildirdi ki, Naxçıvan mənim ikinci evim kimidir. 3 ildir, burada yaşayıram və artıq ikinci dəfədir, “Göycə” festivalına gəlirəm. Göycədən dadan Joseph onun çox dadlı olduğunu, həmçinin göycədən hazırlanan müxtəlif fiqurların maraqlı kompozisiya yaratdığını dedi.



Festivalda ailəsi ilə birlikdə iştirak edən **Türkiyə vətəndaşı Sarp Aktuğ** söhbət zamanı bildirdi ki, ikinci ildir, Naxçıvana gəlir. Şəhərin təmiz, insanların mehriban olduğunu deyən müsahibim festivalda iştirak etməkdən məmnunluğunu ifadə etdi: – Naxçıvan torpağının ləziz nemətlərinin bir neçəsindən dadmışıq. Onu da deyim ki, burada yetişən göycənin bambaşqa dadtamı var. Türkiyədə “erik” adlandırdığımız bu meyvənin qurusu bir çox yeməklərin tərkibinə qatılır. Qiymətlər ürəyimcə olduğuna görə satışa çıxarılan məhsullardan kifayət qədər almışam.

Festivalda həmsöhbət olduğumuz **İran vətəndaşı Süheyla Sulduzlu** Naxçıvan şəhərini çox sevdiyini söylədi: – Naxçıvanda dəfələrlə olmuşam. Bu şəhərin sakinləri həm də çox qonaqpərvərdirlər. Keçən gün naxçıvanlı ailə dostumuzun evində qonaq idik. Orada həm göycədən daddım, həm də öyrəndim ki, bu gözəl şəhərdə yenidən “Göycə” festivalı keçiriləcək. Festivalda iştirak etdiyim üçün sevincliyəm. Keçən il festivaldan aldığım göycə məhsulları evdə ailəmiz tərəfindən də bəyənildi. Gördüyünüz kimi, bu məhsullardan yenə də almışam. Piştaxtalarda nümayiş etdirilən məhsullar çeşidi və xüsusi zövqlə qablaşdırılması ilə seçilir, sərfəli qiymətə təklif olunur.

**Almaniya vətəndaşı Ahmed Yıldız** deyir ki, bir neçə gündür, Naxçıvanda olmağımdan çox məmnunam. Buraya səfərim səhhətimlə bağlı olsa da, boş vaxtlarımdan səmərəli istifadə edir, bu gözəl məmləkətin seyrinə çıxır, onu yaxından tanımağa çalışıram. Buranın ecazkar təbiəti, gözəl, gülərüz, ən əsası isə tarixi keçmişinə dəyər verən insanları var. Hər gün şəhərinizi gəzir, çox gözəl təəssüratlarla geri qayıdıram. Naxçıvan, həqiqətən də, sirli, sehrli bir diyardır. Müasirliklə qədimliyin vəhdəti olan tarixi abidələr, muzeylər insanı valeh edir. Qonaqpərvərlik və səmimiyyətdən söz düşəndə ilk olaraq Naxçıvanı xatırlayacağam.





**Çexiya vətəndaşı Peter Jan Drexcer** söhbət zamanı bildirdi ki, bu, mənim Azərbaycana ilk gəlişimdir. Bakıda Naxçıvan adlı gözəl, qədim bir diyarın olduğunu eşitdim və buraya gəlməyə qərar verdim. Burada Turizm-İnformasiya Mərkəzində oldum, oranın əməkdaşlarından diyarınız haqqında məlumat aldıqdan sonra muxtar respublikanı gəzməyə başladım. Dünyanın bir çox dövlətlərini gəzmişəm, amma ən böyük, iqtisadi gücü ilə öyünən ölkələrdə belə, muzey ziyarəti üçün mütləq ödəniş etməli olursan. Amma burada muzeylərin və tarixi abidələrin girişi pulsuzdur. Bu, turistlər və yerli sakinlər üçün cəlbedicidir. Naxçıvan şəhərindəki bütün muzeyləri gəzmişəm. Sizə əminliklə deyə bilərəm ki, çox az yerdə qədimdən bu günə qalan köhnə, uçuq abidələr əvvəlki görkəminə qaytarılıb və qorunub muzeyə çevrilib. Bu, çox böyük bir dəyərdir. Burada ən çox diqqətimi çəkən isə dini tolerantlıq oldu. Yurdunuz islami dəyərlərlə zəngindir. Məscidləriniz çox gözəldir, onları da sərbəst şəkildə ziyarət etdim.



Bugünkü festival isə, bir sözlə, möhtəşəmdir. Hansı pavilyona yaxınlaşdımsa, səmimiyyət, qonaqpərvərlik gördüm. Hər bir sakin, satıcı, ya da alıcı məni bu dadlı məhsula qonaq olmağa dəvət etdi. Sirli dünyanın bu qədim diyarı haqqında nə qədər tərif desəm, azdır, çünki yaşamağa layiq bir yerdir bura.

**Nisim Bünyatov** deyir ki, əslən azərbaycanlıyam, amma 25 ildir, İspaniyada yaşayıram. Vətənimizin bu qədim, gözəl guşəsində bugünkü müasirlik və inkişafı görmək qürurvericidir. Təmiz, səliqə-sahmanlı küçələrdə gecələr də gündüz kimi aydınlıqdır. Sakitlik insanın ruhunu dincəldir. Səsli-küylü böyük şəhərlərdən buraya gəlib dincəlmək, mən deyərdim ki, cənnətdə olmaq kimidir. Yaşıllıqlar, gül-çiçək adamın zövqünü oxşayır. “Göycə” festivalına bir qrup turistlə birgə gəlmişik. Göycənin dadına söz ola bilməz. Bu meyvə Naxçıvan torpağının adı dillərdə gəzən brend məhsuludur. Buradan qayıdanda aparacağım sovqatlar içərisində mütləq göycə də olacaq.



Qeyd edək ki, festival bazar günü də davam edib və günün sonunda ailə təsərrüfatı sahibləri arasında “Ən yaxşı göycə” müsabiqəsinin qalibləri mükafatlandırılıb. Müsabiqənin nəticələrinə əsasən Naxçıvan şəhəri və Şərur rayonundan müvafiq olaraq İlkin Seyidov və Nazim Abbasov festivalın qalibləri olublar. Babək və Ordubad rayonlarından Vəfadar Eyvazov və Əhəd Məmmədov ikinci, Şərur və Kəngərli rayonlarından Yaqub Həsənov və Rövşən Həsənov isə üçüncü yerə layiq görülüblər. Qaliblərə diplomlar təqdim edilib.

Beləliklə, Naxçıvanın min bir təbii sərvətini, mətbəx zənginliyini və süfrə mədəniyyətini, iqtisadiyyatını sərgiləyən ənənəvi festivallardan biri də uğurla başa çatdı. “Ailə təsərrüfatları ili”ndə keçirilməsi ilə də tarixiləşən IV “Göycə” festivalında müxtəlif rayonlardan olan belə təsərrüfatlar mütəşəkkil şəkildə təmsil olunurdu. Bu isə təsərrüfat sahiblərinin sahibkarlığın inkişafına göstərilən dövlət qayğısından bəhrələnərək istehsalları ilə diyarımızın iqtisadi inkişafına xidmət etməyə çalışdıqlarını bir daha təsdiq edir.

**✍ Ramiyyə ƏKBƏROVA**
**Tural AĞAYEV**
**✍ Güntac ŞAHMƏMMƏDLİ**
**✍ Pərviz HACILI**

## Ətraf mühitin mühafizəsi ümumxalq işidir

***5 iyun – Ümumdünya Ətraf Mühiti Mühafizə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ekologiya Tərbiyə Mərkəzi Naxçıvan şəhər 17 nömrəli orta məktəbdə tədbir keçirib.***

Tədbiri mərkəzin direktoru Rasim Rüstəmov açıb. Mərkəzin dərnək rəhbəri Lətafət İsmayılova “Ətraf mühitin mühafizəsində məktəblilərin rolu” mövzusunda çıxış edib.

Qeyd olunub ki, ölkəmizdə, eləcə də muxtar respublikada da iyunun 5-i ətraf mühitin mühafizəsi günü müxtəlif tədbirlərlə qeyd edilir. Bunun ifadəsidir ki, əgər 20 il bundan əvvəl muxtar respublika ərazisinin 0,6 faizi yaşıllıq idisə, indi bu rəqəm 20 faiz təşkil edir. Bu isə hər ilin yaz və payız fəsillərində muxtar respublikamızda keçirilən iməciliklər və ilboyu yaşıllıqlara qulluq göstərilməsi hesabına mümkün olub.

Sonda məktəbin həyətyanı sahəsində ağac və kol bitkilərinə aqrotexniki qulluq göstərilib.

## “Yaşıllıqlara qulluq” aksiyası

*Son illər ekoloji tarazlığın qorunması, yaşıllıq zolaqlarının genişlənməsi istiqamətində muxtar respublikamızda da silsilə tədbirlər keçirilir.*

Ətraf mühitin mühafizəsinin şagirdlər arasında təbliğ olunması, onlara ekologiyamızın qorunmasının əhəmiyyətinin bir daha çatdırılması məqsədilə muxtar respublikanın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirakı ilə “Yaşıllıqlara qulluq” aksiyası keçirilib. 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə keçirilən aksiya çərçivəsində ümumtəhsil məktəblərinin ərazilərində olan yaşıllıqlara qulluq göstərilib, ərazi alaq otlarından təmizlənib, suvarma işləri aparılıb, qurumuş ağacların yerlərinə dənələr basdırılıb.



**Xəbərlər şöbəsi**


## Elan

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, dəyirman və taxıl qəbulu müəssisələri tələbatdan artıq istehsal olunmuş buğda, arpa və qarğıdalı məhsullarını aşağıda qeyd edilmiş qiymətlərlə satın alır:

*Buğda – 35 qəpik*
*Arpa – 30 qəpik*
*Qarğıdalı – 40 qəpik*

Bildirilir ki, satış üçün təqdim olunan məhsulun ödənişi yerində həyata keçiriləcək.

**Ünvan: Naxçıvan şəhəri, Şəhriyar küçəsi 60,**
**Əlaqə telefonları: (060) 540-75-01, (070) 250-85-81**


### İtmişdir

Türkiyə vətəndaşı Zelal Ayda Esenboğanın adına olan Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 381